

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 11 (23.898)

19 yanvar 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib. Dövlətimizin başçısı metronun "İçərişəhər" stansiyasının qarşısındakı meydanda ucaldılan abidənin üzərindəki örtüyü götürüb.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə ucaldılan abidə bürüncdəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti 2019-cu ildə heykəlin hazırlanması üzrə açıq müsabiqə elan etmişdi. Müsabiqəyə təqdim olunan layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun layihəsi qalib seçilib.

Xalq rəssamı Xanlar Əhmədovu salamlayan Prezident İlham Əliyev abidənin həm böyük xeyriyyəçinin əzəmətini əks etdirdiyini, həm də memarlıq baxımından çox gözəl olduğunu, oxşadığını, tarixi yerdə, Bakının ən gözəl yerlərindən birində ucaldıldığını vurğulayıb.

Sonra dövlətimizin başçısı çıxış edib. Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Zeynalabdin Tağıyev böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Dövlətimizin başçısı bildirib ki, bu gün müstəqil Azərbaycanda onun qoyduğu xeyriyyəçilik ənənələri geniş vüsət almışdır. Bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır.



## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr müəyyənləşdirilib, ötən ilin yekunları müzakirə olunub



***2021-ci ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin strukturunun və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə geniş kollegiya iclası keçirilib.***

İclası giriş sözü ilə açan nazir Tapdıq Əliyev sənayeləşmə sahəsindəki uğurlardan bəhs edərək vurğulayıb ki, keçən il muxtar respublikada iqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən, ixracqabiliyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması istiqamətində tədbirlər görülüb, 120 istehsal və xidmət sahəsi istifadəyə verilib. 61 layihənin icrası isə davam etdirilir. Ümumilikdə, həyata keçirilən tədbirlərin nəticəsində bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.

İclasda özəl sektorda həyata keçirilən layihələrə dövlət dəstəyi tədbirlərinin gedişi də müzakirə olunub. Nazir bildirib ki, özəl sektorun uzunmüddətli və əlverişli şərtlərlə maliyyə resurslarına çıxışının təmin olunması üçün sahibkarlığın güzəştli kreditləşdirilməsi davam etdirilib, ötən il 151 layihənin maliyyələşdirilməsinə 7 milyon 744 min 378 manat həcmində kredit verilib. Bu kreditlərin 191 min 500 manatı sənayenin, 3 milyon 325 min 878 manatı kənd təsərrüfatının inkişafına, 4 milyon 227 min manatı isə xidmət sahələrinin yaradılmasına yönəldilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 550-dən çox yeni iş yerinin açılmasına imkan yaradılıb.

Ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunun artırılması sahəsində əlavə imkanlar yaratmaq məqsədilə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2021-ci ildə 76 ailə təsərrüfatına 1 milyon 221 min 400 manat dövlət maliyyə dəstəyi göstərilib, ailə təsərrüfatları 27 çeşiddə 5000 ədəd tara ilə təmin olunub. Nazirliyin "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ailə təsərrüfatlarında hazırlanan 273 halda məhsullardan orta nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında analizlər aparılıb.

Bildirilib ki, 2021-ci ildə görülən işlər ixracyönümlü məhsulların istehsalının dəstəklənməsinə, investisiyaların cəlb edilməsinin stimullaşdırılmasına öz töhfəsini verib. 2021-ci ildə keçirilmiş 29 beynəlxalq əhəmiyyətli tədbirdə muxtar respublikadan 70 sahibkarlıq subyektinin 97 nümayəndəsinin Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Pakistan, Qətər, Türkiyə, Gürcüstan, Özbəkistan kimi ölkələrdə iştirakı təmin edilib. "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 137 halda mənşə sertifikatı verilib.

Vurğulanıb ki, 2021-ci ildə məhsullarımız daxili bazarda öz mövqeyini möhkəmləndirməklə yanaşı, Rusiya, İran, İraq, Türkiyə, Yəmən, BƏƏ, Gürcüstan, Estoniya, Latviya, Litva, Polşa, Çin, Əfqanıstan, Türkmənistan, Kanada, Qazaxıstan, Ukrayna kimi ölkələrə muxtar respublikadan vafli məmulatları, mebel dəstləri, mineral sular, tütün məmulatları, tikinti materialları, daş məhsulları, plastik inşaat məhsulları, qarğıdalı və digər kənd təsərrüfatı məhsulları ixrac edilib.

İnvestisiya təşviqi sənədinin iqtisadiyyata sərmayələrin cəlb edilməsində əhəmiyyətli mexanizm olduğunu qeyd edən nazir bildirib ki, 2021-ci ildə 4 layihə üzrə 23 milyon 661 min manat dəyərində investisiya təşviqi və təsdiqedici sənəd verilib.

İdxaldan asılılığın azaldılması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və yerli məhsulların ixracının genişləndirilməsi iqtisadi siyasətin prioritetlərindən olduğunu vurğulayan Tapdıq Əliyev qeyd edib ki, ötən ildə 1436 tonu "Naxçıvan Meyvə-Tərəvəz Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən olmaqla, soyuducu anbarlara, ümumilikdə, 8713 ton meyvə-tərəvəz məhsulları tədarük edilib.

İstehlak bazarının davamlı təchizatını təmin etmək məqsədilə ötən il istixana komplekslərində 154 min 705 kvadratmetr sahədə tərəvəz məhsulları yetişdirilib, 903 ton tərəvəz məhsulları istehsal olunaraq satışı həyata keçirilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla davam edib.

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində keçirilən iclası nazir Bəhruz Bayramov açaraq bildirib ki, qəbul edilmiş müvafiq Dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin vaxtlı-vaxtında icra edilməsi muxtar respublikada kənd təsərrüfatının da dinamik inkişafına səbəb olub.*



Qeyd edilib ki, muxtar respublikada əkinəyararlı torpaq sahələrinin səmərəli istifadəsi daim diqqətdə saxlanılır. Ötən il də bu amilə ciddi önəm verilərək 64259 hektar sahədə əkin aparılıb. Taxılçılığın strateji əhəmiyyətə malik olması diqqət mərkəzində saxlanılıb, 2021-ci ilin məhsulu üçün 32721 hektar sahədə taxıl əkini aparılıb. Taxıl əkinlərinin 20930 hektarı buğda, 11791 hektarı isə arpa əkini olub.

Diqqətə çatdırılıb ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhalinin məşğulluğunun artırılması, ailə biznesinin qurulması diqqətdə saxlanılır. Hazırda muxtar respublikada 44 mindən çox ailə təsərrüfatı mövcuddur ki, bundan da 1 dekabr 2021-ci il tarixə 1050 ixtisaslaşmış kiçik və böyük ailə təsərrüfatlarıdır. Onların fəaliyyətinə hərtərəfli şərait yaradılıb.

Bildirilib ki, 2021-ci ilin 11 ayında, ümumilikdə, kənd təsərrüfatı üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən 15 milyon 708 min 400 manat kredit verilib. Texnika və texnoloji avadanlıqlarla yanaşı, infrastruktur layihələrinin hər bir bölgədə uğurla həyata keçirilməsi, yollar, sututarlar, suvarma kanalları, qapalı yeraltı suvarma sistemlərinin tikilib istifadəyə verilməsi və məşğul əhalinin zəhməti məhsul bolluğunun yaranmasına səbəb olub.

Görülən tədbirlər kənd təsərrüfatının inkişafına öz təsirini göstərib, muxtar respublikada 483 milyon 441 manat kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2020-ci illə müqayisədə 4 faiz çoxdur.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasında nazir Ramil Hacı qeyd edib ki, ötən il ərzində nazirlik tərəfindən, ümumilikdə, 309 tədbir keçirilib, bunlardan 120-si gənclərlə iş, 189-u isə bədən tərbiyəsi və idman sahəsini əhatə edib.***

Bildirilib ki, il ərzində yeniyetmə və gənclərin intellektual bilik və bacarıqlarının yüksəldilməsi, Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunması, tariximizin öyrənilməsi, təhlili və gələcək nəsillərə çatdırılması, qədim diyarımızın tanıdılmasında rollarının artırılması, yaradıcılıq potensiallarının inkişaf etdirilməsi və asudə vaxtın səmərəli təşkili məqsədilə bir sıra tədbirlər keçirilib. Muxtar respublikamız ilk dəfə olaraq "Marş irəli" adlı hərbi simulyasiyalı layihəyə ev sahibliyi edib, layihədə gənc nəslin hərb sənətinə marağını artıracaq tədbirlər, hərbi texnikalarla tanışlıq, tariximizin və milli-mənəvi dəyərlərimizin dərindən öyrənilməsi məqsədilə müxtəlif ekskursiyalar, müzakirə və təqdimatlar keçirilib. "Xəmsə", "Axtar tap", "Nə? Harada? Nə zaman?" intellektual oyunları, kitab təqdimatı və müzakirələri, rayonlarımızda keçirilən proqramlaşdırma və motivasiya təlimləri, "Nizami dünyası" adlı teatr və rəsm müsabiqələri, "Gənc rəssamların incəsənət döyüşü", "Yaradıcı Gənclər Akademiyası" layihələri çərçivəsində təşkil olunan kurslar gənclərin intellektual səviyyəsi və zehni inkişafının stimullaşdırılması, karyera istiqamətləri, yaradıcılıq imkanları və təhsiletmə bacarıqlarına əhəmiyyətli təsir göstərib.

Nazir vurğulayıb ki, 2021-ci il aprelin 3-də Ali Məclis Sədrinin iş-



tirakı ilə Uzunoba Təlim-Məşq İdman Kompleksinin istifadəyə verilməsi Dövlət proqramına uyğun olaraq muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və pullu xidmət növlərinin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə Kəngərli rayonunda fitnes zalı fəaliyyətə başlayıb, həmçinin Qabıllı kəndində yeni minifutbol stadionu tikilib. Ordubad şəhər stadionu yenidən qurularaq Ali Məclis Sədrinin iştirakı ilə istifadəyə verilib, Culfa rayonunun Əbrəqunus, Yaycı və Ərəzin kəndlərində cüdo, Babək rayonunun Kültəpə, Nəhəcir və Kəngərli rayonunun Xok kəndlərində güləş, Şərur rayonunda isə ağırlıqqaldırma və stolüstü tennis üzrə paralimpiya idman bölmələri yaradılıb, həmçinin rayonda "Ümid" Atıcılıq Klubu və Naxçıvan şəhərindəki qolbol bölməsinin fəaliyyəti bərpa olunub.

Diqqətə çatdırılıb ki, kişilər və qadınlar arasında şahmat üzrə Azərbaycan çempionatına ölkə idmanı tarixində ilk dəfə olaraq muxtar respublikamızın ev sahibliyi etməsini Naxçıvan şahmatına göstərilən yüksək etimad, böyük idman nailiyyətidir. Bunun nəticəsidir ki, idmançılarımız Serbiyada keçirilən beynəlxalq turnirin qaliblərindən olub, 1 şahmatçımız Rumıniyada keçirilən Avropa çempionatında milli komandamızın heyətində çıxış edib və ilin sonunda FIDE ustası adına layiq görülüb. Ali Məclis Sədrinin gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında 2021-ci il 12 iyul tarixli Sərəncamı ilə şahmatçımızın adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na daxil edilib. İl ərzində idmançıların ölkə və beynəlxalq səviyyəli yarışlarda iştirakı təmin olunub, nəticələrə əsasən ölkə səviyyəli yarışlarda 47, beynəlxalq turnirlərdə 14, Avropa çempionatında 1, dünya çempionatlarında isə 20 medal olmaqla, ümumilikdə, 82 medal qazanılıb. Dünya çempionatlarında əldə olunan 6 qızıl, 8 gümüş və 6 bürünc medal Naxçıvan idman tarixində həm əyarı, həm də sayına görə qazanılan ən yüksək göstərici olmaqla bir ilkdir.

Məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Dövlət-xalq-ordu birliyinin təzahürü



***Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Ordusunun silah arsenalı və maddi-texniki təminatı gücləndirilir, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu daha da artırılır. Naxçıvan Muxtar Respublikasındakı hərbi hissələrdə də infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu gün muxtar respublikadakı ordu, birləşmə və hissələr hərtərəfli təminata, ən müasir silah-sursata və peşəkar şəxsi heyətə malikdir.***

Ordumuzun qüdrətini artıran mühüm amillərdən biri də xalq-ordu birliyidir. Bu birliyin nəticəsidir ki, ölkəmiz Vətən müharibəsində tarixi qələbə qazandı, ərazi bütövlüyümüz təmin olundu, haqq-ədalət öz yerini tapdı. Naxçıvan Muxtar Respublikasında bu məsələ daim diqqətdə saxlanılır, ardıcıl tədbirlər görülür. Muxtar respublika əhalisinin, dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin əlamətdar və bayram günlərində hərbi hissələrə sovqat aparmaları, mədəniyyət kollektivlərinin əsgərlər qarşısında konsert proqramları ilə çıxış etməsi şəxsi heyət tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Ötən il də bu ənənə davam etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il fevralın 8-də Vətən müharibəsi iştirakçıları ilə görüş zamanı yeni yaradılan hərbi hissələrə döyüş bayraqlarını təqdim etmiş, Vətən müharibəsi iştirakçılarını qiymətli hədiyyələrlə mükafatlandırmış, avqustun 18-də isə Soyuq və Təkəqaya döyüş bölgələrində olmuş, ön xətdə xidmətin təşkili və şəxsi heyətin məişət şəraiti ilə maraqlanmış, fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim etmişdir. Avqustun 21-də Ali Məclisin Sədri “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının 6-cı Sərhəd Zastavası üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsində iştirak etmiş, şəxsi heyət və sərhədçi ailələri ilə görüşmüş, sərhədçi uşaqlarına hədiyyələr təqdim etmiş, mənzillərdə yaradılan şəraitlə tanış olmuşdur. Hər iki görüşdə gətirilmiş müxtəlif ərzaq məhsulları hərbi hissə və zastavanın anbarlarına təhvil verilmişdir.





Keçirilən görüşlərdə muxtar respublikadakı hərbi hissələrə və xidmətdə fərqlənən hərbi qulluqçulara ümumi dəyəri 265 min manatdan çox olan ərzaq payı və qiymətli hədiyyələr təqdim olunmuşdur.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2021-ci ilin 27-30 dekabr tarixlərində dövlət qurumlarının və təşkilatların kollektivləri hərbi hissələrdə olmuş, şəxsi heyətlə həmrəylik nümayiş etdirilmiş, müxtəlif ərzaq məhsullarından, meyvə, tərəvəz və şirniyyatlardan ibarət 161 min 91 manat dəyərində bayram sovqatı hərbi hissələrə təhvil verilmişdir.

Məhdud fiziki imkanlı şəxslər tərəfindən hazırlanmış isti qış geyimlərinin Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərlərinə verilməsi xalq-ordu birliyinin daha bir təzahürüdür. 2021-ci ilin payız-qış mövsümündə də bu iş davam etdirilmiş, məhdud fiziki imkanlı şəxslər tərəfindən toxunmuş 2500 cüt yun corab, 2200 jilet və 1000 boyunluq ön xətdə yerləşən hərbi hissələrə göndərilmişdir.

Muxtar respublikada iməciliklər yolu ilə salınan meyvə bağlarından toplanan məhsulun hərbi hissələrə təhvil verilməsi də artıq ənənə halını almışdır. Ötən ilin yay mövsümündə iməciliklər zamanı salınmış meyvə bağlarından 50721 kiloqram ərik, 58594 kiloqram alma, 2939 kiloqram gilənar, 7190 kiloqram alça, 4000 kiloqram üzüm, 43 kiloqram gilas olmaqla, ümumilikdə, 124 tona yaxın meyvə yığılaraq muxtar respublika ərazisində yerləşən ordu, birləşmə və hissələrə verilmişdir.

Qeyd edək ki, muxtar respublikadakı hərbi hissələrin şəxsi heyəti hərtərəfli təminata malikdir. Əsgərlərin qidalanması və sağlamlıqlarının qorunması sahəsində kompleks tədbirlər görülmüş, ən müasir xidmət və yaşayış şəraiti yaradılmışdır. Əlamətdar günlərdə əsgərlərlə həmrəylik nümayiş etdirilməsi, onlara sovqatların aparılması xalqımızın öz ordusuna olan sevgi və ehtiramının daha bir ifadəsidir. Azərbaycan əsgəri də fəxr edir ki, onun arxasında qüdrətli Azərbaycan dövləti və xalqı dayanır. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***“Xalq, dövlət orduya ümid edir, orduya güvənir. Ordu isə xalqın, dövlətin dəstəyinə güvənir”.***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Karqo şirkətlərinin fəaliyyəti müzakirə olunub



***Naxçıvan Muxtar Respublikasındakı karqo şirkətlərinin fəaliyyətinin düzgün təşkili istiqamətində görülən işlər müzakirə olunub.***

Dövlət Gömrük Komitəsində bu məqsədlə keçirilən tədbirdə komitə sədri, gömrük xidməti general-leytenantı Səhət Həbibbəyli Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 mart tarixli, 57 nömrəli Qərarına əsasən muxtar respublikada sürətli poçt xidmətlərinin təşkili, müvafiq qaydada lisenziya almış şirkətlər tərəfindən fəaliyyətin müasir tələblər səviyyəsində qurulması istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, qısa müddətdə görülmüş məqsədyönlü işlərin nəticəsidir ki, artıq Naxçıvan Muxtar Respublikasında əhaliyə göstərilən sürətli poçt xidmətlərinin keyfiyyəti yüksəlib, karqo yüklərinin gömrük nəzarətinin və rəsmiləşdirilməsinin qanunvericiliyə uyğun həyata keçirilməsi təmin olunub. Ölkəmizdə ilk dəfə olaraq Naxçıvanda karqo şirkətləri ilə gömrük orqanları arasında elektron məlumat mübadiləsinin həyata keçirilməsi ilə səmərəli əməkdaşlıq platforması yaradılıb. Vurğulanıb ki, qanunvericiliklə qadağan olunan malların daşınmamasına dair tələblər daim diqqətdə və nəzarətdə saxlanılmalı, gömrük məqsədləri üçün müşayiət sənədləri vaxtında və düzgün formada təqdim olunmalı, lisenziyasız çatdırılma xidməti göstərmək istəyən şəxslərə şərait yaradılmamalıdır.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev qeyd edib ki, sürətli poçt xidmətlərinin Azərbaycan Respublikasının Qanununa uyğun olaraq lisenziya verilmiş hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilməsi etibarlı və təhlükəsiz xidmətlərin göstərilməsini təmin edib, bu sahədə məmnunluq səviyyəsi xeyli yüksəlib. Müxtəlif şəhər və rayon mərkəzlərində yeni-yeni karqo məntəqələrinin fəaliyyətə başlaması sürətli poçt xidmətlərinin əhatə dairəsini genişləndirib, insanların rahatlığı təmin olunub. Ötən dövr ərzində qanunvericiliyin tələblərinə uyğun fəaliyyət göstərməyən 3 karqonun lisenziyası ləğv edilib.

Tədbirdə komitənin Gömrük əməliyyatlarının və risklərin idarəedilməsi bölməsinin böyük inspektoru, gömrük xidməti leytenantı Turqut Abbasov karqo fəaliyyətinin qanunvericiliyə uyğun olaraq həyata keçirilməsi ilə bağlı görülən işlərdən, Əməliyyat və təhqiqat şöbəsinin rəisi, gömrük xidməti mayoru Mahir Orucov karqo şirkətlərinin fəaliyyətlərində aşkarlanmış hüquqpozma halları və onların aradan qaldırılması yollarından, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin Aparatının Əməyin mühafizəsi və mülki müdafiə işləri üzrə məsləhətçisi Sahil Quliyev isə muxtar respublikada sürətli poçt xidmətləri göstərən karqoların fəaliyyət istiqamətlərindən danışıblar.

Sonda karqo şirkətlərinin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb, müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Doktorant və dissertantlar attestasiyadan keçirilib

AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətində keçirilən növbəti iclası bölmənin sədri, akademik İsmayıl Hacıyev iclası açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

AMEA Naxçıvan Bölməsi Aparatının Elm və təhsil şöbəsinin mütəxəssisi Gülvira Abbasova iclasda bölmənin attestasiyadan keçirilən, həmçinin təhsil müddətini bitirərək azad olunan doktorant və dissertantlar haqqında məlumat verib. Bildirilib ki, cari ildə AMEA Naxçıvan Bölməsində 9 doktorant və 30 dissertant tədqiqatını davam etdirir, fəlsəfə doktoru hazırlığı üzrə 12 dissertant, elmlər doktoru hazırlığı üzrə 4 doktorant və 1 dissertant isə artıq təhsil müddətini başa vurub. Hazırda təhsil alan doktorant və dissertantlar Vətən tarixi, arxeologiya, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı, folklorşünaslıq, müqayisəli tarixi və müqayisəli tipoloji dilçilik, botanika, bioloji ehtiyatlar, fiziki kimya, qeyri-üzvi kimya, yarımkeçiricilər fizikası, astrofizika və ulduz astronomiyası, geofizika faydalı qazıntıların geofiziki axtarış üsulları və digər ixtisaslar üzrə tədqiqatları davam etdirirlər.

Sonra elmlər doktorluğu və fəlsəfə doktorluğu elmi dərəcəsi almaq üçün tədqiqat aparan, eləcə də təhsilini başa vuran doktorant və dissertantların apardıqları araşdırmaların icra vəziyyəti müzakirə olunub.

İclasda digər cari məsələlər də müzakirə edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## “İlin ən yaxşı rektoru” mükafatı təqdim edilib



Naxçıvan Dövlət Universitetində təşkil edilən mükafatlandırma mərasimində çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev ötən il universitetin qazandığı uğurları diqqətə çatdırıb. Sonra videoçarx nümayiş olunub.

Qafqazın ən böyük təhsil səhifəsi olan Azərbaycan universitetləri “Facebook” sosial şəbəkəsinin rəhbəri Zöhrab Süleyman qeyd edib ki, 2011-ci ildən yaradılan səhifə 11 ildir ki, təhsil sahəsi üzrə yenilikləri cəmiyyətə çatdırır. Vurğulanıb ki, 2013-cü ildən bəri ildə iki dəfə olmaqla keçirilən müsabiqə ali təhsil ocaqları arasında sağlam rəqabət mühitinin formalaşmasına öz müsbət təsirini göstərir. Qeyd edilib ki, öz unikallığı ilə seçilən sorğu bəyənmələrə yanaşı, izləyicilər və rektor haqqında yazılan müsbət rəylərlə də digərlərindən fərqlənib. Vurğulanıb ki, 405 mindən çox izləyicisi olan səhifədə 40 faiz səs çoxluğu ilə Elbrus İsayev qalib seçilib.

Ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev qazandığı uğuru muxtar respublikada ali təhsil quruculuğu istiqamətində aparılan uğurlu siyasətin bəhrəsi, universitetin nailiyyəti, ona verilən dəyər kimi səciyyələndirib. Diqqətə çatdırılıb ki, muxtar respublikada elmə, təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, ali təhsil ocağı müxtəlif yeniliklərə imza atıb, beynəlxalq əməkdaşlıqda uğurlar əldə edib, ikili diplom layihələrinə start verib. Rektor 2021-ci ilin ali təhsil ocağı üçün bir sıra mühüm yeniliklərlə yadda qaldığını diqqətə çatdırıb.

Azərbaycan universitetləri “Facebook” sosial şəbəkəsinin rəhbəri Zöhrab Süleyman ilin ən yaxşı universitetinin ən yaxşı rektoru plaketini Elbrus İsayevə təqdim edib.

Qeyd edək ki, Elbrus İsayev hər üç – “Facebook”, “Instagram”, “Telegram” sosial şəbəkə hesablarında qalib olub. Tədbirdə çıxış edənlər rektoru təbrik edib, fəaliyyətində uğurlar arzulayıblar.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Əhalinin fasiləsiz qazla təminatı ötən il də diqqətdə saxlanılıb



Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində keçirilən müşavirədə çıxış edən Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov bildirmişdir ki, ötən il ərzində də əhalinin və digər istehlakçıların fasiləsiz, təhlükəsiz təbii qazla təchizatının təmin olunmasına xüsusi diqqət yetirilmişdir.

Hesabat ilində yeni qaz boru xətlərinin quraşdırılması, yenidənqurma, abadlıq işlərinin görülməsi zamanı qaz boru xətlərinin yerinin dəyişdirilməsi, korroziyaya uğramış yeraltı yol, qapı keçidlərinin yerüstü keçidlərlə əvəz edilməsi, təbii fəlakət, sel, daşqın zamanı zərərçəkmiş qaz xətlərinin yenidən qurulması işlərinin görülməsi ilə əlaqədar istifadə olunan müxtəlif diametrli polietilen və dəmir boruların uzunluğu 193288 p/m olmuşdur. Xidmətin nəzarət-ölçü cihazlarının kalibrlənməsi laboratoriyası qrafik üzrə qaz təsərrüfatında istismarda olan nəzarət-ölçü cihazlarının kalibrlənmə işlərinin metroloji təminatını keyfiyyətli, təhlükəsiz həyata keçirilmiş avadanlıqlara texniki xidmət və profilaktik qulluq göstərilmişdir. Muxtar respublikada qaz təsərrüfatı şəbəkəsində qaz dedektorları vasitəsilə 7731 ədəd sızma aşkarlanmış və sızmalar texniki istismar qaydalarına uyğun olaraq aradan qaldırılmışdır.

Qeyd edilmişdir ki, şəhər, rayon Qaz İstismar idarələrinin qəza dispetçer saһələrində təbii qaz istehlakçıları tərəfindən qaz sızması, qazın təzyiqinin düşməsi, tənzimləyicilərin dayanması və digər bu kimi səbəblərə görə ilin 12 ayı ərzində 12304 çağırış daxil olmuşdur. Çağırışlara vaxtında gedilmiş, bütün işlər təlimata uyğun yerinə yetirilərək təhlükəsiz və fasiləsiz təbii qazın nəqli bərpa olunmuşdur.

Sonda məruzə ətrafında çıxışlar dinlənilmişdir.

## Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınıb

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çağırışçıların yola salınmasına başlanılıb. 2004-cü ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları müəyyənləşdirilmiş qrafik əsasında xidmət yerlərinə göndərilib.

Xatırladaq ki, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçıların xidmət yerlərinə göndərilməsi və nəzərdə tutulmuş xidmət müddətini keçərək ehtiyata buraxılmış müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyatda olan hərbi vəzifəlilərin qeydiyyata alınması prosesi yanvarın 30-dək davam edəcəkdir.

**Xəbərlər şöbəsi**




# Sözsüz bir şeir və ya həyatın özü – bu dəfə tam fərqli

## (Leyla Əzimbəyovanın fərdi yaradıcılıq sərgisindən)

***Bəhruz Kəngərli adına Sərgi Salonuna daxil oluram. İlk baxışdan salonda möhtəşəm mənzərələr gözümə dəyir. Bütün rəsmlərə eyni anda baxmağa tələsirəm. O qədər gözəl və peşəkarcasına işlənmiş rəsmlərdir ki. Hansı rəsmə baxıramsa, hamısında bir nüansı görürəm: gənc və istedadlı rəssamın dünyagörüşünün çox geniş olduğunu. Dünyagörüşü deyəndə təkcə mövzu genişliyini deyil, həm də rəng çeşidinin çoxluğunu, parlaqlığını, bir mövzunu bir neçə fərqli üslubda işləmək bacarığını, müəllifin milli-mədəni dəyərlərimizin əhatəsində formalaşdığını, məharətini, geniş təxəyyülünü, səmimiyyətini, özünəinamını, uşaqlıqdan formalaşan rəssamlıq sevgisinin onda yaratdığı həyat eşqini görürəm. Bir sözlə, valehedicidir. Rəssam geniş təxəyyülünün ərsəyə gətirdiyi, baxdıqca doyulmayan natürmortları, portretləri, peyzajları, kompozisiyaları ilə insanı sanki bir rəsm səyahətinə çıxarır. Bu səyahət o qədər mənalı, düşündürücü, emosional, təsiredici, sevgi dolu, cəzbedicidir ki, zamanın necə gəlib keçdiyini belə, hiss etmirsən.***

Bu əsərlərdə "Əlvan həyat"ın çox-çeşidli rənglərlə gözəlliklərini, "Payız"ın müxtəlif çalarlarını, "Söhbət"lərdə qadın əhvali-ruhiyyəsini, "Süfrə", "Yemək vaxtı", "Şirinçay", "Ovaxtkı toylar", "İndiki toylar", "Se-



zansayağı" rəsmlərində yaşayan adət-ənənələrimizi, "Gün batımı", "Fırtına", "Arpaçay", "Xatirələr", "Möcüzələrə baxış", "Sahil", "Biçənək", "Həyətlər", "Möminə xatın" adlı rəsmlərdə rəng çalarlarının cazibəsini, "Sakitlik", "Bağda", "Gözəl gül", "Zeytunlu natürmort", "Narlar", "Qarağat", "Payız nemətləri", "Anbar", "Sarı natürmort" əsərlərində yağlı boyanın məharəti ilə forma gözəlliyinin vəhdətini, "Güləndam", "Sərvər", "Ana-bala" rəsmlərində müasir insan surətlərinin aydın fikirlə ifadəsini görürəm. Sözsüz bir şeirdir bu əsərlər...Məşhur fransız rəssamı Pol Sezan deyirdi ki, rəssam çox və ya az miqdarda öz modelinin və əsasən, öz ifadə vasitələrinin sahibidir. Həqiqətən də, Leyla xanımın fırçasının gücü ilə ərsəyə gələn rəsmlərə baxdıqda onun özünəməxsus yanaşmasının, öz ifadə vasitələrinin köməyi ilə düşüncələrini dilləndirdiyini və fikirlərini tamaşaçıya yormadan çatdırmaq qabiliyyətinin də şahidi oluram. Məhz bu qeyri-adilikdir ki, ötən ilin dekabrında, eləcə də bu il yanvarın 14-də yuxarıda adını çəkdiyim əsərlərindən ibarət "Fərqli olaraq" adlı fərdi yaradıcılıq sərgisi açılıb. Adı kimi tamaşaçıları fərqli bir aləmə aparan, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda keçirilən bu sərginin açılışında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iştirak etmiş, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın yaradıcılığını yüksək qiymətləndirərək demişdir: ***"Bu gün sərgisi keçirilən Leyla Əzimbəyovanın özünəməxsus janr üslubu var. Onun əsərlərində həyat olduğu kimi görünür, rəng seçimləri heç də bədbin deyil, əhvali-ruhiyyə yaradan rənglərdir. Leyla Əzimbəyovanın fərdi yaradıcılıq sərgisi Bakı şəhərindən sonra Naxçıvanda keçirilir, onun əsərləri ölkəmizin tanınmış rəssamları tərəfindən yüksək dəyərləndirilir... Bugünkü sərgi muxtar respublikanın mədəni həyatında bir hadisədir. Çünki Leyla Əzimbəyovanın yaradıcılığı muxtar respublikanın, ümumilikdə isə ölkəmizin rəssamlıq sənəti sahəsində yeni bir formadır, janrdır".*** Sərgidə Leyla Əzimbəyovanın əsərləri əsasında hazırlanan "Fərqli olaraq" adlı albom-kataloqu və rəssamın 38 əsəri nümayiş etdirilmişdir.

Təbiidir ki, uzun müddət yaddaşlardan çıxmayacaq bu sərgi, eləcə də müəllifin yaradıcılığı haqqında naxçıvanlı rəssamlar, tələbə-gənclərlə həmsöhbət oluram.

***Ülviyyə Həmzəyeva – Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı:*** – Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Leyla Əzimbəyovanın Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin dəstəyi ilə müxtəlif vaxtlarda açılan 2 sərgisində rəssamın son dövr yaradıcılığına aid 40-a yaxın əsəri sərgilənib. Qeyd edim ki, Leyla xanımın sənət yolu çox maraqlı, rəngarəngdir. Onun sənətin beşiyi Naxçıvanda dünyaya gəlməsi, eləcə də





ailəsində Naxçıvan rəssamları içərisində istedadı, məhsuldar yaradıcılığı ilə fərqlənən rəssamlardan biri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Mir Cəlil Seyidovun olması da buna təsirsiz ötüşməyib. Mir Cəlil Seyidov bir vaxtlar Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri də olmuşdur. Məhz buna görədir ki, Leyla xanım tibb üzrə ali təhsil alsa da, onun qəlbi hər zaman təsviri incəsənətlə döyünüb. Rəssam olmaq istəyi onu sevdiyi işlə məşğul olmağa vadar edib. Ona görə deyirlər ki, sənət insanı hər zaman özünə tərəf çəkir. Leyla Əzimbəyova, mən deyərdim ki, Naxçıvan rəssamlıq məktəbinin bu gün ən layiqli nümayəndələrindən biridir. Onun əsərlərində rəngarənglik, kolorit, güclü fırça, işıq və kölgə zərbələri, ümumiyyətlə onun həyata baxışı fərqlidir. Yəni onda sırf rəssama aid olan dünyagörüşü var. Leyla xanım Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr və magistratura təhsil pillələrini bitirib. Xalq rəssamları Ömər Eldarov, müəllimi Səlhab Məmmədov, digər sənətşünaslar Leyla xanım haqqında həmişə çox yüksək, müsbət fikirlər səsləndirib, onun yaradıcılığını yüksək qiymətləndirirlər. Gənc rəssamın əsərlərində bu gün həm akademizm, həm özünəməxsus stil, həm də eksperimentlər görə bilirik. O, fransız rəssamı, postimpressionizm cərəyanının yaradıcısı və görkəmli nümayəndəsi Pol Sezan, Qərb incəsənət tarixinin ən görkəmli simalarından biri olan Vinsent Van Qoq yaradıcılığından da təsirlənib. Əsərlərində də o rəngarəngliyi, sarının gözəl işığını görüb, duya bilirik. Leyla xanımın akademiyada oxuya-oxuya bir çox əhəmiyyətli festivallarda – "Nəsimi ili"nə həsr olunmuş festivalda, Şuşada keçirilən "Xarıbülbül" festivalında iştirak etməsi o deməkdir ki, o özünü artıq sənət aləmində tanıdıb. Çünki o, daim axtarışdadır. Onun "Kuklalar", "Ovaxtkı toylar", "İndiki toylar", "Güləndam", "Sərvər" kimi rəsmlərində özünəxas, fərqli fiqurlardan istifadə edilib. Fikrimcə, o, əgər "Kuklalar" tematikasını davam etdirsə, gələcəkdə də böyük uğur qazanacaq. Onu, xüsusilə qeyd edim ki, keçirilən sərgi muxtar respublikada möhtəşəm mədəniyyət hadisələrindən biri idi. Bundan sonra da Rəssamlar Birliyində maraqlı sərgilər olacağına inanıram.

Vurğulayım ki, rəssamlar fəaliyyət göstərdikləri yerin mədəni sərvətidir, mədəni mühitin göstəricisidir. Əgər rəssam varsa, demək, mədəni mühit də inkişaf edir və yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən rəssamlarımız hər zaman diqqət və qayğı ilə əhatə olunub. Diyarımızda rəsm festivallarının keçirilməsi, rəssamlarımızın fərdi sərgi və yubileylərində cənab Sədrin şəxsən iştirakı həmişə incəsənət adamları üçün böyük stimul olub. Ötən il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi təntənəli şəkildə qeyd olundu. Bu tədbirdə Ali Məclisin Sədri iştirak etdi, rəssamlarımıza öz tövsiyələrini, məsləhətlərini verdi və biz də bu tövsiyələri rəhbər tutaraq yolumuza uğurla davam edirik.

***Hüseynqulu Əliyev – Azərbaycan Respublikasının Xalq rəssamı***: – Bu fərdi sərgi onu deməyə imkan verir ki, Naxçıvanda qadın rəssamlar sırasında Azərbaycanın Xalq rəssamı Elmira Şahtaxtinskayadan sonra uğurlu, bacarıqlı rəssamlarmız görünür. Məhz elə Ülviyyə Həmzəyeva, Həbibə Allahverdiyeva, Ləman Məmmədova, Fizzə Quliyeva və Leyla Əzimbəyova kimi. Onların hərəsinin öz yaradıcılıq yolu var. Leyla xanım isə fərqliliyinin ən ümdə tərəfini sərgidə özünün akademik üsluba olan yanaşmasında göstərə bildi. Leyla Əzimbəyovanın əsərlərində akademizm, realizm üslubu özünü çox düzgün, kəskin göstərir. Onun əsərlərinin müxtəlif janrlı, müxtəlif sahəli olması da çox maraqlıdır. Rəssam var ki, ancaq natürmort, mənzərə, tematik mövzulardan birində özünün xüsusi ştrixləri ilə seçilir, lakin bu sərgidə dediyim janrların hamısında bacarıqlı əsərlər gördüm. Onun tematik mövzular sırasında "Söhbət" adlı iki eyniadlı əsəri var ki, bir-birinə yaxın mövzu olsa da, əsərdəki obrazların çoxfiqurlu olması həm əsərin çətinliyini, mürəkkəbliyini, həm də buradakı qadın fiqurların psixoloji durumlarını təsviri sənət, rəngkarlıq yolu ilə gənc rəssam bu yaşında bacarıqla göstərə bilmişdir. Leyla xanımın təkcə tematik mövzular, portret, insan obrazlarından başqa Şərq sənət üslubuna, memarlıq üslubuna məxsus olan bir neçə əsəri vardır. O, "Həyətlər" adlı rəsm əsərində təkcə gördüyü binaların formasını təsvir etməklə kifayətlənməmiş, onların həm də hansı məkana, hansı millətə, hansı əraziyə aid olduğunu göstərə bilmək qabiliyyətinə də malik olmuşdur. Bu da rəssamın çox dərin düşüncəyə, dünyagörüşə malik olduğunun bariz ifadəsidir. Ən gözəl, insanın ovqatını oxşayan, onun ruhu ilə uyğun gələn əsərləri sırasında natürmortları daha şirin, daha gözəldir. Onun "Payız" əsərləri var ki, bu əsərlərin hamısında insan ovqatını darıxdırmayan, adama rahatlıq gətirən rəng çalarları ilə payızın qızıl, bərəkətli, bol sərvət gətirən təbiətin bir hissəsi olduğunu görə bilirik. "Ana-bala" əsərində bu iki obrazın bir-birinə nə qədər doğma olmasını portretdən, xarakterdən, xasiyyətdən, rəngdən, evdəki mühitdə olan əşyalardan hiss etmək və birinin gənc, o birisinin isə dünyagörmüş insan kimi əsl azərbaycanlı xarakterində olduğunu görmək olur. Bu əsərlərdə Azərbaycan incəsənətinin tərəqqisinə layiqli töhfələr vermiş istedadlı sənətkarlar sırasında Böyükağa Mirzəzadənin üslubundan ştrixlər aydın görünür. Onun istifadə etdiyi şirin, bal kimi axan rəngləri müəllifin "Narlar" natürmortunda görmək olar. Mikayıl Abdullayev kimi böyük sənətkarın akademik üslubundan qidalanan bir gənc kimi yaratdığı əsərdə özünəməxsusluğunu ortaya qoyması da çox fərəhləndirici haldır. Bu o deməkdir ki, Naxçıvanımızda yeni gənc rəssamlar yetişir. Qadın rəssamlarımız, xüsusilə fərqlənirlər. Leyla xanım Əzimbəyova bilirəm ki, Azərbaycan rəssamlığına şöhrət gətirəcəkdir.

***Nizami Alıyev – Naxçıvan Rəssamlar Birliyinin üzvü, sənətşünas alim:*** – Gənc rəssam Leyla Əzimbəyovanın yaradıcılığı haqqında məlumatım var idi, lakin görməyənlər sərgi salonuna daxil olarkən soruşurdular ki, bu, hansı xarici rəssamın sərgisidir. Həqiqətən də, onun yaradıcılığında fransız impressionistlərinin, xüsusilə gürcü rəssamlarının izini görmək olur. O, çox mükəmməl, rəng koloritinə malik, gənc olmasına baxmayaraq, çox uğurlar əldə etmiş bir rəssamdır. Onun əsərlərində müəllifin öz yorumunu, fəlsəfi düşüncəsini, poetik dillə təsvirini görürsən. Yəni onun hər bir əsərində ürəyinin izi vardır. Onun istər portretlərində, istər tək və çox fiqurativ kompozisiyalarında, eləcə də mənzərə və natürmortlarında öz fəlsəfi dünyagörüşünün poetik təsvirinə rast gəlirsən. Hər birini öz süzgəcindən keçirib yaradır. Leyla Əzimbəyovanın rəssam kimi ən böyük üstünlüklərindən biri də odur ki, onun rəngləri bişmişdir. Rəsmdə rəngi bişirmək əsas amillərdən biridir. Hər rəssam da buna nail ola bilmir. Leyla xanım gənc olmasına baxmayaraq, işi harada bitirməyi, tamaşaçıya nə demək istədiyini yaxşı



bilir. Bu sərgi, şübhəsiz, gənc rəssamlarımız üçün böyük bir stimul, həm də muxtar respublika rəssamlığı üçün yeni nəfəs oldu.

***Telman Abdinov – Azərbaycan Respublikasının Əməkdar rəssamı:*** – Son dövrlərdə diyarımızda rəssamlığa meyil artıb, gənc rəssamlarımız yetişirlər, maraqlı əl işlərini sərgiyə qoymaqla tamaşaçıları da cəlb edirlər. Sevindiricidir ki, qadın rəssamlarımız da sərgilərlə iştirak edir, öz əsərləri ilə seçilirlər. Onlardan da biri Leyla Əzimbəyovadır. Leyla xanımın beş-altı il bundan əvvəlki işləri ilə, bugünkü əsərlərini müqayisə edəndə görürsən ki, nə qədər inkişaf vardır. Həm kompozisiya, kolorit, həm də rəssamlıqda bir sıra bilinməyən yolları tətbiq etmək baxımından. O, rəssamlığın bütün janrlarında işləməyi bacarır, kətan üzərində yağlı boya ilə "Sezansayağı" əsərini çox böyük ustalıqla işləyib. "Anbar" əsərində rəngi, fakturanı olduğu kimi verməyi bacarıb. "Zeytunlu natürmort" əsəri çox xoşuma gəldi. Burada kətana baxanda rənglərin yerində vurulması, professionallıq hiss olunur. Mənə elə gəlir ki, o, bir müddətdən sonra Azərbaycanın görkəmli rəssamlarından biri olacaq və dünyada tanınacaq. Çünki o bu sənəti sevir. Həkimliyi bitirsə də, mən deyərdim, Leyla xanımın birinci sənəti rəssamlıqdır. Onun belə gözəl sərgiləri bundan sonra da davamlı olsun.

Sərgi Salonunda Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət və rəngkarlıq ixtisasının tələbələrini görürəm. Onlar da bu maraqlı sərgiyə baxmağa gəliblər. ***Təsviri incəsənət ixtisasının I kurs tələbəsi Sehran İsayeva*** bu sərgidən yadında qalan anları bölüşərək qeyd etdi ki, sərgi onun diqqətini çox cəlb edib. Xüsusilə də rəsm əsərlərində milli adət-ənənələrimizin təsviri, gözəl təbiət mənzərələri, milli mətbəximizdən nümunələr, keçmişlə müasir dövrün müqayisəsi onda xüsusi maraq oyadıb: "Rəsmlərdə işlədilən yağlı boyalar, işıq-kölgə effektlərinin mütənasibliyi rəssamın peşəkarlığından xəbər verir. Buradan aldığım ilhamla çalışacağam ki, əvvəl və indinin müqayisəsini göstərən kətan üzərində bir rəsm əsəri işləyim. Məsələn, qədim və indiki Naxçıvan şəhərini işləyə biləcəyimi düşünürəm. Bu sərgini təşkil edənlərə minnətdaram ki, biz gənclər də belə maraqlı və cəlbedici sərgilərdən nələrsə öyrənə bilirik".

*Qeyd edək ki, həm Bakıda, həm də Naxçıvanda satılacaq əsərlərdən əldə olunacaq vəsaitlər ölkə Prezidenti tərəfindən yaradılmış "YAŞAT" Fonduna köçürüləcəkdir. Bu da ərazi bütövlüyümüzün bərpa olunmasında sağlamlığını itirmiş qazilərin müalicəsinə və digər işlərə sərf olunacaqdır. Belə xeyirxah və nəcib addım üçün Leyla Əzimbəyovaya təşəkkürümüzü bildirir, ona yaradıcılıq fəaliyyətində böyük uğurlar arzu edirik.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Futbol Federasiyasının yeni sədri seçilib



*Naxçıvan Futbol Federasiyasının hesabat-seçki yığıncağı keçirilib. Yığıncağın gündəliyində Naxçıvan Futbol Federasiyasının fəaliyyəti, görülən işlər, eləcə də federasiyanın yeni sədrinin seçilməsi olub.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı bildirib ki, muxtar respublikamızda idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir və bu sahədə dövlət siyasətinin tənzimlənməsini həyata keçirir. 2021-ci ildə nazirlik tərəfindən bədən tərbiyəsi və idman sahəsi üzrə 189 tədbir keçirilib, eyni zamanda Naxçıvan idmançıları ölkə səviyyəli yarışlarda 47, beynəlxalq turnirlərdə 14, Avropa çempionatında 1, dünya çempionatlarında isə 20 medal olmaqla, ümumilikdə, 82 medal qazanıblar. Bunlardan 27-si qızıl, 32-si gümüş və 23-ü bürünc medaldır və bu, Naxçıvan idmanı tarixində medalların əyarına görə qazanılan ən yüksək göstəricidir. Bütün bunlar Naxçıvanda idman siyasətinin uğurla aparılmasının bariz nümunəsidir.

Futbol Federasiyasının fəaliyyəti haqqında danışan nazir deyib ki, muxtar respublikada 17 stadion, 28 minifutbol meydançası mövcuddur və hazırda 100 qrup üzrə 1244 yeniyetmə və gənc aktiv şəkildə futbolla məşğuldur. Rayon və kəndlərdə əhalinin, xüsusilə də gənc nəslin futbola olan marağının daha da artırılması məqsədilə Şərur rayonunda 4, Culfa və Sədərək rayonlarının hər birində 2, Ordubad və Kəngərli rayonlarının hərəsində 1 olmaqla, ümumilikdə, 10 stadion əsaslı təmir edilərək istifadəyə verilib.

Sonra Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev federasiyanın ötənilki fəaliyyəti barədə ətraflı məlumat verib.

Çıxışlardan sonra iclasın gündəliyinə əsasən federasiyanın sədrinin seçilməsi məsələsinə baxılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Sahibkarlar Konfederasiyası İdarə Heyətinin sədri, "Cahan Holdinq" Şirkətlər İttifaqının prezidenti Vüqar Abbasov Naxçıvan Futbol Federasiyasının sədri seçilib.

Vüqar Abbasov muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıya, eyni zamanda göstərilən etimada görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirib. Federasiya sədri Futbol Federasiyasının bundan sonrakı fəaliyyətini günün tələbləri səviyyəsində qurulması, uşaq, yeniyetmə və gənclərin bu idman növünə cəlbinə diqqətlə yanaşılması, nazirliklə federasiyanın birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların yerinə yetirilməsi, eyni zamanda futbolun inkişafı yolunda yeni uğurların əldə olunacağına inamını ifadə edib.

Sonda iclasın qərar layihəsi oxunub və təsdiq olunub.

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində keçirilən şahmat üzrə "Naxçıvan Premium Turniri-2"də növbəti turun oyunları başa çatıb.*

## Turnir cədvəlinin sadiqləri



Bu tur daha çox liderlərin mübarizəsi ilə yadda qalıb. Beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev (2353) beynəlxalq usta Talıb Babayevlə (2258) mübarizəyə aydınlıq gətirib. Görüş "sülh"lə başa çatıb. FIDE ustası Nəsrin Babayeva (2017) ilə İlkin Qəbulovun (1602) da görüşü heç-heçə bitib.

Beynəlxalq usta Toğrul Həsənzadə (2293) isə FIDE ustası Sadiq Məmmədovu (2177) sınağa çəkib və ağ-qara taxtanı məğlub tərk edib. Liderlər cədvəlində yer alan Sadiq Qarayev (2126) bu turda Seyid Hüseynlə (2098) üz-üzə gəlib. Maraqla gözlənilən görüşün qalibi Sadiq Qarayev olub. Beynəlxalq usta Pərviz Qasımov (2359) turnirdə ardıcıl ikinci qələbəsini qazanıb. O, Nazlı Hümbətovanı (1629) məğlub etməklə buna nail olub. Rza Həsənli (1582) isə Ayxan Əliyevlə (1983) qarşılaşıb və qalib gəlib.

5 turdan sonra turnir cədvəlinə 4 xalla Sadiq Məmmədov və Sadiq Qarayev başçılıq edirlər.

6-cı turda aşağıdakı görüşlər keçiriləcək:

*Talıb Babayev - İlkin Qəbulov*
*Toğrul Həsənzadə - Nəsrin Babayeva*
*Ayxan Əliyev - Sadiq Məmmədov*
*Nazlı Hümbətova - Rza Həsənli*
*Urfan Sevdimalıyev - Sadiq Qarayev*
*Seyid Hüseyn - Pərviz Qasımov*

## Güləşçilərimiz Masallıda 4 medal qazanıb



Masallı Olimpiya İdman Kompleksində sərbəst güləş üzrə keçirilən respublika turnirinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının təmsilçilərinin də iştirak etdiyi turnirdə ölkənin müxtəlif şəhər və rayonlarının klublarının 400-dən çox idmançısı mübarizə aparıb. Sərbəst güləşçilərimiz bu turnirdə 4 müxtəlif əyarlı medal əldə ediblər.

26 kiloqram çəki dərəcəsində mübarizə aparan Ələkbər Əsgərov yalnız final görüşündə məğlub olaraq gümüş medal qazanıb. 35 kiloqram çəki dərəcəsində Məhəmməd Hümbətov, 42 kiloqram çəki dərəcəsində Məhəmməd İsmayılov və 92 kiloqram çəki dərəcəsində Süleyman Məmmədov turniri bürünc medalla başa vurublar.

Qalib idmançılarımız diplom və medallarla təltif olunublar.

## Boksçularımızdan uğurlu nəticələr

Kişi boksçular arasında Azərbaycan çempionatı başa çatıb. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 29 komandanın 100 boksçusu qüvvəsini sınayıb. Beş gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.

Bakı Boks Mərkəzində keçirilən çempionatda Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri də mübarizə aparıb. Belə ki, 60 kiloqram çəki dərəcəsində rinqə çıxan Tayfur Əliyev 1/4 final mərhələsində Səbail İdman Klubunun boksçusu Əsədulla Camaləddinovu, yarımfinalda isə Balakən təmsilçisi Ramazan Abdullayevi 5:0 hesablı



nəticələrlə məğlub edərək finala yüksəlib. Həlledici görüşdə "Qızıl Əlcək" İdman Klubunun dəri əlcək sahibini məğlub edən Tayfur Əliyev karyerasında 12-ci dəfə Azərbaycan çempionu adını qazanıb.

Boks Federasiyasının digər yetirməsi Eldar Quliyev isə 86 kiloqram çəki dərəcəsində rinqi qalib tərk edib. İdmançımız ilk görüşdə İlyas Mehdiyevi (Tərtər), ikinci görüşdə Rüfət Nəbiyevi (Ağdaş) məğlub edərək həlledici görüşdə iştirak etmək hüququ qazanıb. Finalda Sürət Qarayevi (Səbail İdman Klubu) 5:0 hesabı ilə məğlub edən idmançımız ölkə çempionu olub.

Qalib idmançılar təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***

İran İslam Respublikasının Urmiya şəhərində boks üzrə beynəlxalq turnir keçirilib. Turnirdə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının "Naxçıvan" komandası da iştirak edib. 4 gün çəkən beynəlxalq turnirdə dəri əlcək sahiblərimiz uğurla çıxış ediblər. Belə ki, Möhsün Həsənzadə (50 kiloqram), Elbrus Kərimli (52 kiloqram), Nazim Abazərli (54 kiloqram), Nizami Novruzov (57 kiloqram), Murad Rəhimov (63 kiloqram), Davidlekon Olaboys (75 kiloqram) və Məhəmmədəli Bağırov (80 kiloqram) bütün rəqiblərinə qalib gələrək turnirin qızıl medalını qazanıblar.

Sonda idmançılarımız mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Beynəlxalq riyaziyyat müsabiqəsi keçirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə AMC (American Mathematics Competitions) Beynəlxalq riyaziyyat müsabiqəsi keçirilib.

Müsabiqə hər il Amerika Riyaziyyatçılar Assosiasiyası tərəfindən dünyanın 40-dan çox ölkəsində təşkil olunur.

Muxtar respublikada 8 mərkəzdə təşkil edilən imtahan zamanı, ümumilikdə, 750 şagird öz biliyini yoxlayıb.

Şagirdlər müsabiqədə iştirak etmək üçün onlayn qaydada qeydiyyatdan keçiblər. Müsabiqədə şagirdlərə test formatında 25 sual təqdim olunub, cavablandırmaq üçün isə 75 dəqiqə vaxt verilib. Müsabiqədə yüksək nəticə əldə edən hər bir şagirdə beynəlxalq sertifikat təqdim olunacaq.

Müsabiqənin keçirilməsində məqsəd VII-IX sinif şagirdlərinə riyaziyyat fənni üzrə biliklərini yoxlamağa imkan yaratmaqdır.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Növbəti sertifikatlaşdırma imtahanları başlayıb

Muxtar respublikada pedaqoji heyətin bilik və bacarıqlarının yoxlanılması və fəaliyyətinin gücləndirilməsi məqsədilə ikinci dəfə keçirilən və təhsilverənlərin karyera inkişafında, əməyinin stimullaşdırılmasında nəzərə alınacaq sertifikatlaşdırma imtahanlarında ötən il keçirilən imtahanlarda müvafiq keçid balını toplaya bilməyənlər, üzrlü səbəblərdən iştirak etməyənlər və pedaqoji fəaliyyətinin 5 ili tamam olan müəllimlər iştirak edəcəklər.

Ənənəvi qaydada iki – test və müsahibə mərhələsindən ibarət keçiriləcək imtahanların sualları təhsilverənlərin tutduğu vəzifə üzrə əmək funksiyasına, peşəsinə və tədris etdiyi fənnə aid tərtib olunub. Sertifikatlaşdırmanın test mərhələsində təhsilverənlərə tədris etdiyi fənn üzrə ümumtəhsil proqramına aid 40, tədris metodikası və təlim strategiyasına aid 20 sual olmaqla, ümumilikdə, 60 sual təqdim edilir.

2 saat vaxt çərçivəsində elektron qaydada keçirilən test mərhələsində hər bir düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar düzgün cavablara təsir göstərmir.

Test mərhələsində azı 30 bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılacaqlar. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlər 5 il müddətində təhsil müəssisələrində öz ixtisasları üzrə pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ əldə edirlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 25 yanvar 2022-ci il tarixdə 15 faiz güzəştlə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 15 faiz güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 106013000621-10301 reyestr nömrəli, 2799 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 9 otaqlı, 517,83 kvadratmetri ümumi, 238,45 kvadratmetri yaşayış, 279,38 kvadratmetri yardımçı sahədən ibarət fərdi yaşayış evi | Culfa rayonu, Kırna kəndi | 97.200 | 82.620 | 4.860 |
| 2. | 106013000656-06301 reyestr nömrəli, 5400 kvadratmetr torpaq sahəsində yerləşən ümumi sahəsi 2505,05 kvadratmetr olan qeyri-yaşayış binası | Culfa rayonu, Kırna kəndi | 115.600 | 98.260 | 5.780 |
| 3. | 104013009242-10301 reyestr nömrəli, 600 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 312,42 kvadratmetri ümumi, 114,47 kvadratmetri yaşayış, 197,95 kvadratmetri yardımçı sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, A.Zamanov küçəsi, ev 54 | 181.000 | 153.850 | 9.050 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 21 yanvar 2022-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 25 yanvar 2022-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

### *İtmişdir*

Sultanov Bəhlul Şahbaz oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Qoçüstü məhəlləsi bina 4, mənzil 61 ünvanında yaşayan Sadiqov Kamil Abbas oğlunun adına olan 6186 inventar nömrəli texniki pasport və MH-0053423 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

***

Məmmədov Elnur Bəxtiyar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 53